# 1994-cü il TARİFLƏR VƏ TİCARƏT ÜZRƏ BAŞ SAZİŞİN TƏDİYYƏ BALANSI MÜDDƏALARINA DAİR RAZILAŞMA

*Üzvlər,*

GATT 1994 XII və XVIII:B Maddələrinin və 28 noyabr 1979-cu ildə qəbul olunmuş Tədiyyə Balansı Məqsədləri üçün Görülən Ticarət Tədbirlərinə dair Bəyannamənin müddəalarını (BİSD 26S/205-209, bundan sonra bu Razılaşmada "1979-cu il Bəyannaməsi" adlandırılacaq) təsdiq edərək və bu cür müddəalara aydınlıq gətirmək məqsədilə[1]

Aşağıdakı *razılığa gəlirlər:*

Tədbirlərin tətbiqi

1. Üzvlər, mümkün qədər qısa müddət ərzində tədiyyə balansı məqsədilə görülmüş məhdudlaşdırıcı idxal tədbirlərinin aradan qaldırılması üzrə vaxt qrafikini ictimaiyyətə açıq şəkildə elan etmək öhdəliklərini təsdiqləyirlər. Belə qəbul olunur ki, bu cür vaxt qrafikləri tədiyyə balansı vəziyyətində dəyişikliklər nəzərə alınmaqla müvafiq qaydada dəyişdirilə bilər. Vaxt qrafiki bir üzv tərəfindən ictimaiyyətə açıqlanmadığı hallarda, həmin Üzv bu səbəblərə görə əsaslandırmalar təqdim etməlidir.

2. Üzvlər ticarətə ən az pozucu təsirə malik tədbirlərə üstünlük vermək öhdəliklərini təsdiq edirlər. Bu cür tədbirlər (bu Razılaşmada "qiymət əsaslı tədbirlər" kimi istinad edilir) əlavə idxal yığımları, idxal depoziti tələbləri və ya idxal olunan malların qiymətinə təsir edən digər ekvivalent ticarət tədbirləri kimi başa düşülməlidir. Belə qəbul olunur ki, II Maddə müddəalarına baxmayaraq, tədiyyə balansı məqsədləri ilə görülmüş qiymət-əsaslı tədbirlər həmin Üzvün Qrafikinə daxil edilmiş vəzifələrə əlavə şəklində tətbiq oluna bilər. Bununla yanaşı, həmin Üzv qiymət əsaslı tədbirin məcburi rüsumu açıq şəkildə və ayrıca olaraq, həmin Razılaşmanın xəbərdarlıq prosedurları əsasında üstələdiyi məbləği göstərməlidir.

[1] Bu Razılaşmada hər hansı bir müddəa Üzvlərin GATT 1994 XXII və ya XVIII:B Maddələrində nəzərdə tutulan hüquq və öhdəliklərini dəyişdirmək məqsədi güdülmür. GATT 1994 Mübahisələri Həlli üzrə Razılaşma ilə işlənib hazırlanmış və tətbiq olunmuş XXII və XXIII Maddələrin müddəaları tədiyyə balansı məqsədləri üçün qəbul olunmuş qadağanedici idxal tədbirlərinin tətbiqindən yaranan istənilən məsələlərlə bağlı istinad oluna bilər.

3. Üzvlər tədiyyə balansı məqsədlərilə yeni kəmiyyət məhdudiyyətlərinin tətbiq edilməsindən çəkinməlidirlər, əgər tədiyyə balansı ilə kritik vəziyyətə görə, qiymət tədbirləri xarici ödəmələr mövqeyində kəskin pisləşməni dayandıra bilməsələr. Bir Üzvün kəmiyyət məhdudiyyətləri tətbiq etdiyi hallarda, qiymət-əsaslı tədbirlərin tədiyyə balansının vəziyyətini nəzərdən keçirmək üçün kifayət qədər bir vasitə olmadığı səbəbləri barədə əsaslandırıcı məlumat təqdim etməlidir. Kəmiyyət məhdudiyyətləri tətbiq edən Üzv, bu tədbirlərin miqyasını və məhdudlaşdırıcı təsirini əhəmiyyətli dərəcədə azaldaraq əldə olunan tərəqqini ardıcıl məsləhətləşmələrdə göstərməlidir. Belə qəbul olunur ki, tədiyyə balansı məqsədləri üçün görülmüş birdən çox məhdudlaşdırıcı idxal tədbiri eyni məhsula tətbiq oluna bilməz.

4. Üzvlər təsdiq edirlər ki, tədiyyə balansı məqsədləri üçün tətbiq olunan məhdudlaşdırıcı idxal tədbirləri yalnız idxalın ümumi səviyyəsinə nəzarət etmək üçün tətbiq oluna bilər və tədiyyə balansının vəziyyətini həll etmək üçün lazım olanı aşmamalıdır. Hər hansı təsadüfi qoruyucu təsiri minimuma endirmək üçün Üzv şəffaf şəkildə məhdudiyyətlər tətbiq etməlidir. İdxalçı Üzvün səlahiyyətli orqanları hansı məhsulların məhdudiyyətlərə məruz qaldığını müəyyənləşdirmək üçün istifadə edilən meyarlar barədə kifayət qədər əsaslandırıcı məlumat təqdim etməlidirlər. XII Maddənin 3-cü paraqrafında və XVIII Maddənin 10-cu paraqrafında nəzərdə tutulduğu kimi, Üzvlər müəyyən mühüm məhsullarla bağlı hallarda tətbiq olunan əlavə ödənişlərin tətbiqini və ya tədiyyə balansı məqsədləri üçün tətbiq edilən digər tədbirləri istisna edə və ya məhdudlaşdıra bilər. "Mühüm məhsullar" termini əsas istehlak tələbatlarını təmin edən və ya Üzvün istehsal üçün lazım olan istehsal vasitələri, yaxud xərcləri kimi öz tədiyyə balansının vəziyyətini yaxşılaşdırmaq təşəbbüsünə yardım edən məhsullar mənasını verir. Kəmiyyət məhdudiyyətlərinin idarə olunması zamanı Üzv imtiyazlı lisenziyalaşdırmadan yalnız zəruri hallarda istifadə etməlidir və onu tədricən aradan qaldırmalıdır. İcazə verilən idxal həcmlərini və ya dəyərlərini müəyyənləşdirmək üçün istifadə olunan meyarlara uyğun müvafiq əsaslandırma təmin edilməlidir.

Tədiyyə balansına dair Məsləhətləşmə Prosedurları

5. Tədiyyə Balansı Məhdudiyyətləri üzrə Komitə (bu Razılaşmada "Komitə" kimi istinad edilir) tədiyyə balansı məqsədləri ilə görülən bütün məhdudlaşdırıcı idxal tədbirlərini nəzərdən keçirmək üçün məsləhətləşmələr aparmalıdır. Komitəyə üzvlük ona xidmət etmək arzusunu ifadə edən bütün Üzv-ölkələr üçün açıqdır. Komitə aşağıda göstərilən müddəalar nəzərə alınmaqla, 28 aprel 1970-ci il tarixində təsdiq edilmiş Tədiyyə Balansı Məhdudiyyətləri üzrə məsləhətləşmələr prosedurlarına riayət etməlidir (BŞD

18S/48-53, bu Razılaşmada "tam məsləhət prosedurları" kimi istinad edilmişdir).

6. Yeni məhdudiyyətlər tətbiq edən və ya tədbirlərin əhəmiyyətli dərəcədə gücləndirilməsi yolu ilə mövcud məhdudiyyətlərin ümumi səviyyəsini artıran Üzv bu tədbirlərin qəbul edildiyi gündən dörd ay müddətində Komitə ilə məsləhətləşmələr aparmalıdır. Bu cür tədbirləri qəbul edən Üzv XII Maddənin 4 (a) paraqrafına və ya XVIII Maddənin 12 (a) paraqrafına uyğun olaraq məsləhətləşmənin aparılmasını tələb edə bilər. Belə bir tələb edilmədikdə, Komitənin Sədri Üzvü bu cür məsləhətləşməni aparmağa dəvət etməlidir. Məsləhətləşmədə araşdırıla biləcək amillər arasında, xüsusilə, tədiyyə balansı həmin məsləhətləşmədə nəzərdən keçirilən amillərə, *yeri gəlmişkən,* tədiyyə balansı məqsədləri üçün nəzərdə tutulan məhdudlaşdırıcı tədbirlərin yeni növləri, yaxud da həmin məhdudiyyətlərin səviyyəsində artım və ya malların nomenkulaturası daxil edilə bilər.

7. Tədiyyə balansı məqsədləri üçün tətbiq edilən bütün məhdudiyyətlər XII Maddənin 4 (b) paraqrafına əsasən Komitədə və ya XVIII Maddənin 12 (b) paraqrafına əsasən, məsləhət edən Üzvün razılığı ilə məsləhətləşmələrin dövriliyinin dəyişdirilməsinin mümkünlüyünü nəzərə almaqla və ya Baş Şuranın təklifi ilə istənilən xüsusi baxış proseduruna uyğun olaraq dövri nəzərdən keçirilməlidir.

8. Məsləhətləşmələr 19 dekabr 1972-ci il tarixində təsdiq edilmiş sadələşdirilmiş prosedurlar əsasında (BİSD 20S / 47-49, bu Razılaşmada "sadələşdirilmiş məsləhət prosedurları" kimi istinad edilmiş) liberallaşdırma səylərini davam etdirən inkişaf edən Üzv ölkələr və ya az inkişaf etmiş Üzv ölkələrlə bağlı hallarda, əvvəlki məsləhətləşmələr zamanı Komitəyə təqdim edilən qrafikə uyğun olaraq aparıla bilər. Sadələşdirilmiş məsləhətləşmə prosedurları inkişaf etməkdə olan bir ölkənin Ticarət Siyasətinin İcmalının təqvim ili və məsləhətləşmələr üçün müəyyən edilmiş tarix eyni olduqda da istifadə edilə bilər. Belə hallarda, tam məsləhət prosedurlarından istifadə olunma barədə qərar 1979-cu il Bəyannaməsinin 8-ci paraqrafında göstərilən amillər əsasında aparılacaqdır. Az inkişaf etmiş Üzv ölkələrlə bağlı hallar istisna olmaqla, sadələşdirilmiş məsləhətləşmə prosedurları əsasında ikidən artıq ardıcıl məsləhətləşmə aparıla bilməz.

*Xəbərdarlıq və Sənədləşmə*

9. Üzv tədiyyə balansı məqsədləri üçün qəbul edilən məhdudlaşdırıcı idxal tədbirlərinin tətbiqi və ya 1-ci paraqrafa uyğun olaraq elan edilmiş tədbirlərin aradan qaldırılması üçün vaxt qrafikində dəyişikliklər edilməsi barədə Baş Şuraya məlumat verməlidir. Əhəmiyyətli dəyişikliklər elan olunduqdan sonra

30 gündən gec olmayaraq və ya ondan əvvəl Baş Şuraya məlumat verilməlidir. İllik əsaslarla, hər bir Üzv qanunvericilikdə, əsasnamələrdə, siyasi bəyanatlarda, yaxud da rəsmi bildirişlərdəki dəyişikliklər barədə, Üzvlər tərəfindən nəzərdən keçirilmək məqsədilə, aparılmış dəyişikliklər də daxil olmaqla, Katibliyə vahid bildiriş təqdim etməlidir. Həmin bildirişlərə, mümkün ola biləcək hədlər daxilində, tarif xətti səviyyəsində, tətbiq olunmuş tədbirlərin növü, onların idarə olunması üçün istifadə olunan meyarlar, əhatə olunan məhsullar və təsirlərə məruz qalmış ticarət axınları barədə tam məlumat daxil edilməlidir.

10. Hər hansı bir Üzvün müraciəti əsasında, bildirişlər Komitə tərəfindən nəzərdən keçirilə bilər. Bu cür nəzərdən keçirmələr XII Maddənin 4(a), yaxud da XVIII Maddənin 12(a) paraqrafları əsasında hər hansı bir məsləhətləşmənin tələb edilib edilməməsini yoxlamaqla, yaxud da o barədə hər hansı bir xəbərdarlıq verilməklə qaldırılmış xüsusi məsələlərin aydınlaşdırılması ilə məhdudlaşdırılmalıdır. Başqa bir Üzv tərəfindən tətbiq olunmuş məhdudlaşdırıcı idxal tədbirinin tədiyyə balansı məqsədlərilə görüldüyünə inanmaq üçün əllərində əsasları olan Üzvlər müvafiq məsələni Komitənin diqqətinə çatdıra bilər. Komitənin Sədri tədbirlərə dair məlumat tələb etməlidir və onu bütün Üzvlərə təqdim etməlidir. Komitənin hər-hansı bir üzvünün məsləhətləşmələr zamanı müvafiq açıqlamalar axtarmaq hüququna xələl gətirmədən, suallar məsləhətçi Üzv tərəfindən baxılmaq üçün əvvəlcədən təqdim oluna bilər.

11. Məsləhətçi Üzv müvafiq hesab edilən digər məlumatlara əlavə olaraq məsləhətləşmələr üçün aşağıdakıları əhatə edən Əsas Sənəd hazırlamalıdır: (a) Tədiyyə balansının vəziyyətinin və perspektivlərinin icmalı, o cümlədən tədiyyə balansının vəziyyətinə təsir edən daxili və xarici amillərin, sağlam və davamlı əsaslarla tarazlığın bərpa olunması üçün görülmüş daxili siyasət tədbirlərinin nəzərdən keçirilməsi; (b) tədiyyə balansı məqsədləri üçün tətbiq olunan məhdudiyyətlərin tam təsviri, onların hüquqi əsasları və əlaqədar qoruyucu təsirləri azaltmaq üçün görülmüş tədbirlər; (c) Komitənin gəldiyi yekun rəylər fonunda idxal məhdudiyyətlərinin liberallaşdırılmasına dair sonuncu məsləhətləşmədən bəri görülən tədbirlər; (d) qalan məhdudiyyətlərin aradan qaldırılması və tədricən yumşaldılması üçün plan. Müvafiq olduğu hallarda ÜTT tərəfindən verilmiş digər xəbərdarlıq və ya hesabatlardakı məlumatlara istinad etmək olar. Sadələşdirilmiş məsləhətləşmə prosedurlarına müvafiq olaraq, məsləhətçi Üzv həmin Əsas Sənədlə əhatə olunan elementlərə dair mühüm məlumatı özündə cəmləşdirən yazılı bir sənəd təqdim etməlidir.

12. Katiblik Komitədə məsləhətləşmələrin keçirilməsini asanlaşdırmaq məqsədi ilə məsləhətləşmələr planının müxtəlif aspektlərinə dair faktiki istinad sənədi hazırlamalıdır. İnkişaf etməkdə olan Üzv ölkələrlə bağlı hallarda Katibliyin sənədinə tədiyyə balansı vəziyyətinə və məsləhətçi Üzvün

perspektivlərinə dair xarici ticarət mühiti hallarına dair müvafiq istinad və analitik materiallar daxil edilməlidir. Katibliyin texniki yardım xidmətləri inkişaf etməkdə olan Üzv ölkənin xahişi ilə məsləhətləşmələr üçün sənədlərin hazırlanmasında kömək etməlidir.

*Tədiyyə Balansı üzrə Məsləhətləşmələrin Nəticələri*

13. Komitə Baş Şuraya öz məsləhətləşmələri ilə bağlı hesabat verməlidir. Tam məsləhətləşmə prosedurlarından istifadə edildikdə, həmin hesabatda Komitənin məsləhətləşmələr üzrə planın müxtəlif aspektlərinə dair yekun rəylər, habelə onların əsaslandırıldığı faktlar və səbəblər göstərilməlidir. Komissiya XII, XVIII:B Maddələrinin, 1979-cu il Bəyannaməsinin və bu Razılaşmanın həyata keçirilməsinə yardım göstərmək məqsədi güdən tövsiyələr üçün təklifləri öz yekun rəylərinə daxil etməyə səy göstərməlidir. Tədiyyə balansı məqsədilə görülmüş məhdudlaşdırıcı tədbirlərin ləğv edilməsi üçün vaxt qrafiki təqdim edilmiş olduğu hallarda Baş Şura belə bir vaxt qrafikinə əməl etməklə hər hansı bir Üzvün GATT 1994 şərtlərinə əməl etmiş kimi qəbul edilməli olduğunu tövsiyə edə bilər. Baş Şura xüsusi tövsiyələr verdiyi hallarda Üzvlərin hüquq və öhdəlikləri bu cür tövsiyələr nəzərə alınaraq qiymətləndirilməlidir. Baş Şura tərəfindən tövsiyələrə dair xüsusi təkliflər olmadığı hallarda Komitənin rəyləri Komitədə ifadə olunan müxtəlif fikirləri nəzərə almalıdır. Sadələşdirilmiş məsləhətləşmə prosedurlarından istifadə olunduğu hallarda sözügedən hesabata Komitədə müzakirə olunmuş əsas elementlərin xülasəsi və tam məsləhətləşmələrə dair prosedurların tələb olunub-olunmaması barədə qərar daxil edilməlidir.